**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ MAKROİQTİSADİ TARAZLIĞIN TƏMİN EDİLMƏSİ YOLLARI

İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə

Elm sahəsi: 53- İqtisad Elmləri

İddiaçı: **İlhamə Eybulla qızı Aslanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda "İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbərlər: İqtisad elmlər doktoru, professor
**Gülşən Zaid qızı Yüzbaşıyeva**

İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Asif Mirlazım oğlu Mustafayev**

Rəsmi opponentlər: İqtisad elmlər doktoru
**Sevda Məmməd qızı Mikayılova**

İqtisad elmləri namizədi, dosent
**Oqtay Yusif oğlu Yusifov**

İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Habil Hüseyn oğlu Aslanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: İqtisad elmlər doktoru, professor
**Nazim Müzəffər oğlu Müzəffərli (İmanov)**

Dissertasiya şurasının elmi katibi: İqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: İqtisad elmlər doktoru
**Fuad Əlinağı oğlu Qənbərov**

# MÜNDƏRİCAT

**GİRİŞ**.......................................................................................3
**I FƏSİL. MAKROİQTİSADİ TARAZLIĞIN TƏMİN OLUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**........10
1.1. Makroiqtisadi tarazlığın təmin olunması üzrə nəzəri dəyərləndirmələr.........................................................................10
1.2. Davamlı inkişafın təmin edilməsinin makroiqtisadi aspektləri...............................................................................28
1.3. Makroiqtisadi tarazlığın təmin edilməsində paradiqmalar və qiymətləndirmələr.......................................................................43
**II FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATINDA DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ MAKROİQTİSADİ TARAZLIĞIN TƏMİN EDİLMƏSİNİN MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ.**
2.1. Azərbaycan iqtisadiyyatında real makroiqtisadi tarazlıq modeli və onun iqtisadi artıma təsirinin qiymətləndirilməsi............................61
2.2.Azərbaycan iqtisadiyyatında makroiqtisadi tarazlığın təmin edilməsinin sosial iqtisadi təsirlərinin qiymətləndirilməsi və təhlili.79
2.3. Azərbaycanda davamlı inkişaf şəraitində makroiqtisadi tarazlığın təmin edilməsinin ekoloji təsirləri və onun qiymətləndirilməsi........90
**III FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATINDA DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ MAKROİQTİSADİ TARAZLIĞIN TƏMİN EDİLMƏSİNİN ARTIRILMASI YOLLARI.**
3.1. Azərbaycan iqtisadiyyatında real makroiqtisadi tarazlıq modelinin iqtisadi artıma təsirinin artırılması yolları.......................................104
3.2. Makroiqtisadi tarazlığın təmin edilməsində neft gəlirlərindən asılılığın azaldılması yolları.......................................................115.
3.3. Makroiqtisadi tarazlığın təmin edilməsinin pozitiv sosial-iqtisadi təirlərinin artırılması və neqativ ekoloji təsirlərinin azaldılması yolları..........................................................................................126
**Nəticə**.....................................................................................138
**İstifadə edilmiş ədəbiyyat siyahısı**...............................................144
**Əlavələr**..................................................................................160

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir mərhələdə milli iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biri kimi çıxış edən "davamlılıq" və "dayanıqlılıq" inkişaf anlayışları elmi tədqiqat mövzuları üçün aktuallığa çevrilmişdir. Bunun başlıca səbəbi kimi iqtisadiyyatın təkcə özünə əsaslanan resurslar baxımından deyil, həmçinin sosial və ekoloji baxımından inkişafının labüdlüyü göstərilir. Xüsusən də vurğulamaq lazımdır ki, cəmiyyət üzvlərinin tələbatlarında baş vermiş keyfiyyət dəyişiklikləri onun təmin olunma prosesini həyata keçirən istehsalın da yeni texnologiyalarla həyata keçirilməsini şərtləndirmişdir. İqtisadiyyatın davamlı inkişafa əsaslanması və onun təmin olunması problemi şübhəsiz ki, hər bir dövlət üçün milli iqtisadiyyat səviyyəli, yəni makroiqtisadi səviyyəli məsələdir. Belə ki, davamlı inkişafın təmin edilməsi bilavasitə olaraq makroiqtisadi göstəricilərin müsbət olmasını tələb edir ki, bir sıra tənəzzül və böhran zamanı iqtisadiyyat onlara dayanıqlı ola bilsin.

Davamlı inkişaf və makroiqtisadi tarazlığın təmin edilməsi problemi qarşılıqlı təmin etmə baxımından dialektik vəhdətdədir və bir - birini tamamlayan məsələlərdən hesab olunur. Cəmiyyət miqyasında hər bir dövlət qeyd olunan bu iki problemin həllinə özünün malik olduğu resurs və texnologiya baxımından fərqli yanaşa bilərlər. Belə ki, müəyyən inkişaf mərhələsi keçmiş bir sıra ölkələr davamlı inkişafı digər iqtisadi göstəricilər vasitəsilə müəyyən müddətə təmin edərkən onun dayanıqlı olması üçün mütləq surətdə məcmu tələb ilə məcmu təklif arasında tarazlığı təmin etməlidirlər. Belə ölkələr sırasına Azərbaycanı da aid etmək olar. Son on ildə Azərbaycan iqtisadiyyatında baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliklərini onun davamlı olmasının göstəricisi kimi qiymətləndirə bilərik. Lakin beynəlxalq aləmdə baş verən dəyişikliklər, iqtisadi qloballaşmanın təhdidləri və s. tələb edir ki, ölkədə makroiqtisadi səviyyədə tarazlıq ciddi surətdə pozulmasın. Bunun üçün hər bir ölkə iqtisadi artımın qiymətləndirilməsini, tarazlığı təmin edən sosial-iqtisadi təsirlərin öyrənilməsini, xüsusən də ekoloji amillərin nəzərə alınmasını diqqət mərkəzində saxlamalıdır. Məsələnin bu formada qoyuluşu şübhəsiz ki, geniş tədqiqat mövzusuna çevrilməsini şərtləndirir və aktual olduğunu

göstərir. Bu baxımdan hesab etmişik ki, Azərbaycan iqtisadiyyatında davamlı inkişaf şəraitində makroiqtisadi tarazlığın təmin edilməsi problemi ciddi elmi yanaşma tələb edir və fikrimizcə, onun həlli böyük nəzəri və təcrübi əhəmiyyətə malikdir.
Milli iqtisadiyyatda davamlı inkişafın və makroiqtisadi tarazlığın təmin edilməsi mühüm problemlərdən hesab olunur və qloballaşma-rəqabətqabiliyyətlilik amillərinin tələbi ilə onun nəzəri baxımından araşdırılması aktuallıq kəsb edir. Qeyd olunan problemin mürəkkəbliyi və qiymətləndirilməsi üzrə göstəricilərin dinamikliyini nəzərə alaraq söyləyə bilərik ki, bununla əlaqədar bir sıra iqtisadçı alimlər öz tədqiqat-nəzəri yanaşmalarını ortaya qoymuşlar. Respublikamızda davamlı inkişaf və makroiqtisadi tarazlığın təmin edilməsi ilə bağlı məsələlər Y.Həsənli [143; 144; 145], R.Quliyev [86], N.M.İmanov [58], İ.Kərimli [60], M.A.Əhmədov [43;44], M.X.Meybullayev [65], Q.Manafov [155], K.F.Sadıqov, F.P.Rəhmanov, Ş.S.Qafarov [82]. R.T. Həsənov [55] və başqa alimlərimiz tərəfindən geniş tədqiq olunmuşdur. Rusiya iqtisadçı alimlərindən С.Н.Бобылев [95], Э.В.Гирусов [97], Р.А.Перелет [123], Д.М.Гвишиани, Б.М.Миркин [119], Л.Г.Наумова [119], А.В.Яблоков, Л.Г.Мельник, В.П Колесов [110], С.Ю. Плешков [125], В.М. Попов [126], М.А.Зайганова [101], Э.В.Чиянова [129], М.О.Лихачев [116;117;118], О.Л.Говорина [98;99], digər xarici ölkələrin iqtisadçı alimlərindən W.Darity [168], J.D. Sachs [165;166], K.Murphy [157], R.Topel [158], R.Shimer [141;164], R.E.Hall [142], M.Beyker, R.J.Gordon [140], D.Neumark [159;160], E.Malinvaud [153;154], R. Layard [151], J.F Helliwell [165], J.Poterba [163], P.Minford, D.Peel [156], L.Katz, B.Krueger [149], R.E.Lucas [152], L.E.Jones [148] və s.-nin elmi əsərlərində davamlı inkişaf və makroiqtisadi tarazlığın təmin edilməsi ilə bağlı araşdırmalara rast gəlinir.

Qeyd etmək lazımdır ki, respublikamızda bu sahədə müəyyən tədqiqat işləri yerinə yetirən iqtisadçı alimlərin əsərlərinin əhəmiyyətini azaltmadan söyləyə bilərik ki, tam halında davamlı inkişaf və makroiqtisadi tarazlığın təmin edilməsi problemləri müstəqil tədqiqat obyektinə çevrilməmişdir. Məhz bu zərurət dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmiş, elmi

yeniliklərin əldə olunmasına imkan verən məqsəd və vəzifələri müəyyən etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycanda davamlı inkişaf şəraitində makroiqtisadi tarazlığın təmin edilməsi probleminin nəzəri-metodoloji məsələlərinin tədqiq edilməsi və bu aspekdə elmi cəhətdən əsaslandırılmış təkliflərin-tövsiyələrin hazırlanmasından ibarətdir.

Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Makroiqtisadi tarazlığın təmin olunması üzrə nəzəri dəyərləndirmələri aparmaq;
- Davamlı inkişafın təmin edilməsinin makroiqtisadi aspektlərini öyrənmək;
- Makroiqtisadi tarazlıqda yeni paradiqmaları müəyyən etmək;
- Makroiqtisadi tarazlığın təmin edilməsinin iqtisadi artıma təsirini hesablanmaq;
- Davamlı inkişaf şəraitində makroiqtisadi tarazlığın təmin edilməsində sosial-iqtisadi göstəriciləri təhlil etmək;
- Azərbaycan iqtisadiyyatında real makroiqtisadi tarazlıq modelinin iqtisadi artıma təsirinin artırılması istiqamətlərini göstərmək;
- Makroiqtisadi tarazlığın təmin edilməsində neft gəlirlərinin rolunun azaldılması yollarını müəyyən etmək;
- Davamlı inkişaf şəraititində neqativ ekoloji amillərin təsirinin azaldılması üzrə təklif və tövsiyələri irəli sürmək.

**Tədqiqatın metodları**

Davamlı inkişafın təmin edilməsi və bu şəraitdə makroiqtisadi tarazlığın əldə olunmasına həsr olunmuş Azərbaycan və xarici ölkə alimlərinin əsərləri, klassik və müasir iqtisadi nəzəriyyələrin konseptual müddəaları, problemlə bağlı Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar və digər normativ-hüquqi sənədlər təşkil edir. Eyni zamanda, tədqiqatın yerinə yetirilməsi zamanı yerli və xarici alim və mütəxəssislərin nəzəri və empirik tədqiqatları, iqtisadi təhlil, müqayisə, iqtisadi-riyazi, statistik, korrelyasiya, reqressiya, zaman sıralarının təhlili metodlarından və qrafik yanaşma üsulundan istifadə

edilmişdir. Tədqiqat prosesində göstəricilər arasında əlaqənin qiymətləndiriməsi metodu olaraq korrelyasiya metodundan geniş istifadə edilib.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

**1-ci müddəa:**

Azərbaycan iqtisadiyyatında məcmu tələbin və onun tərkib hissələrinin son 18 il üçün dinamikası araşdırılaraq müəyyən edilmişdir ki, məcmu tələblə əhalinin gəlirləri, istehlak xərcləri, investisiyalar, kreditlərin həcmi, dövlət satınalmaları, dövlət xərcləri,ixrac, idxal, qiymətlər asılılıdır. Diğər göstəricilərə nisbətən Azərbaycanda ÜDM ilə "xalis ixrac"ın arasında asılılıq azdır. İxracın əsasən neftdən asılı olması və istehlak mallarına olan tələbatın da idxal hesabına baş verməsi idxal və ixrac arasında müəyyən asılılıq yaradıb.

**2-ci müddəa:**

Azərbaycan iqtisadiyyatında son 18 ildə qiymətlərin artması heç də tələbin azalması ilə nəticələnməyib. Hətta ixracın çox yüksək olduğu 2008-ci ilin rəqəmlərini nəzərə alsaq, P-AD korrelyasiya əlaqəsinin xeyli güclü olduğunu görə bilərik (korrelyasiya əmsalı R=0,97). Əgər 2008-ci il rəqəmlərini nəzərə almasaq, onda bu əlaqənin daha güclü olduğuna əmin olarıq (R=0,9914).

**3-cü müddəa:**

Məcmu təklifin (AS) dinamikası, onun son 18 ildə 2000-ci ilə nisbətən dəyişməsi və həmin illərdə qiymətlərin nisbi dəyişməsini araşdıraraq belə nəticəyə gəlinmişdir ki, 2000-2014-cü illər ərzində Azərbaycanda məcmu təklifin həcmi ümumilikdə artan tendensiyaya malik olub. 2008-ci ildə bu artım kəskin olsa da sonrakı ildə bu bir qədər artım azalıb, lakin yenidən səlist artım təmin olunub. 2015-ci ildə bir qədər azalma müşahidə olunsa da, sonrakı illərdə yenidən artım müşahidə olunub. 2011-ci ildən sonra isə neft hasilatının azalması və sonrakı illərdə neftin qiymətinin aşağı düşməsi AS-nin həcminə mənfi təsir göstərib.

**4-cü müddəa:**

Azərbaycanda son 18 ildə qiymətlərin davamlı olaraq artması məcmu təklifin də artmasına səbəb olub. Əlbəttə, məcmu təklifin artması müəyyən həcmdən sonra qiymətlərin sabitləşməsinə səbəb olmalı və qiymət artımını saxlamalı idi. Bu o zaman baş verməli idi

ki, AD-AS tarazlığı təmin edilsin. Təəssüf ki, Azərbaycan iqtisadiyyatında belə tarazlığın uzunmüddətli təmin edilməsinə nail olunmayıb. Məcmu tələbin durmadan artması və məcmu təklifin ona "çata" bilməməsi qiymətlərin durmadan artması ilə nəticələnib.

**5-ci müddəa:**

Azərbaycanda son 18 ildə məcmu təklifin artması idxal həcmini qətiyyən azaltmayıb. Əksinə, onlar arasında ciddi korrelyasiya əlaqəsi var. Azərbaycan iqtisadiyyatında məcmu təklifin (AS) həcmi ilə idxal həcmi arasındakı korrelyasi əlaqəsi kifayət qədər güclüdür və korrelyasiya əmsalı R=0,9717-yə bərabərdir.

**6-cı müddəa:**

Azərbaycanda son illərdə məcmu tələbin həcmi ilə məcmu təklifin həcmi yalnız qısa müddət ərzində 2007-ci ildə bərabər olub. Qalan müddətdə isə məcmu tələb məcmu təklifi həmişə üstələyib. Məcmu tələbin məcmu təklifi son 18 ildə davamlı olaraq üstələməsinin nəticəsidir ki, bu müddət ərzində qiymətlərin yalnız yüksəlməsi müşayiət olunub.

**7-ci müddəa:**

Azərbaycanda son 18 ildə neft emalının ümumi həcminin məcmu tələbin və məcmu təklifin həcmi ilə əlaqəsi öyrənilmiş və və müəyyən olunmuşdur ki, onlar arasında ciddi korrelyasiya əlaqəsi var.

**8-ci müddəa:**

Azərbaycanda davamlı inkişaf şəraitində makroiqtisadi tarazlığı təmin etmək üçün verilən təklif yaxın illərdə məcmu təklifin həcmi ilə məcmu tələbin həcminin yaxınlaşdırılmasından ibarət ola bilər. Deməli, elə iqtisadi islahatlar həyata keçirilməlidir ki, növbəti 5-10 ildə bu iki göstəricini ifadə edən əyrilər bir-birinə tədricən və mümkün qədər daha çox yaxınlaşsın.

**Tədqiqatın elmi yeniliyi:**

- Məcmu tələbin son 18 il üçün inkişaf dinamikası öyrənilmiş və onun əhalinin istehlak xərcləri, investisiyalar, dövlət xərcləri, xalis ixrac arasındakı korrelyasiya əlaqələri hesablanmışdır.
- Makroiqtisadi tarazlığın təmin olunması prosesində məcmu təklifin qiymət dəyişilməsi dinamikası və idxalın həcmi arasındakı korrelyasiya əlaqəsi hesablanmışdır.

- Makroiqtisadi tarazlığın təmin olunmasının neft hasilatı həcmi ilə korrelyasiya əlaqəsi hesablanmış və bu aspektdə ekoloji faktorun qiymətləndirilməsi həyata keçirilmişdir.

- ARDNF-dan dövlət büdcəsinə transferlərin həcmi ilə yoxsulluğun səviyyəsi arasında korrelyasiya əlaqəsi hesablanmış və qiymətlərin dəyişilməsi zərurəti əsaslandırılmışdır. (səh.142-150).

**Tədqiqatın obyekti** Davamlı inkişafla makroiqtisadi tarazlığın qarşılıqlı əlaqələnməsi sistemi.

**Tədqiqatın predmeti** isə davamlı inkişafın təmin edilməsi və bu şəraitdə makroiqtisadi tarazlığın əldə olunması üzrə ortaya çıxan iqtisadi münasibətlərin öyrənilməsindən ibarətdir.

**Tədqiqatın məlumat mənbələri**. Tədqiqat işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hesabat məlumatlarından, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Dövlət Neft Fondunun, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının, digər qurumların statistik-hesabat materiallarından, uçot-hesabat sənədlərindən də istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

Müasir dövrdə iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi və bu aspektdə makroiqtisadi tarazlığın əldə olunmasının nəzəri məsələlərinin və metodoloji əsaslarının işlənməsinə, müxtəlif makroiqtisadi göstəricilərdən istifadə edərək real vəziyyətin qiymətləndirilməsinə, təhlil və müxtəlif statistik göstəricilərdən istifadə edərək hesablamaların aparılmasına, problemin sosial - iqtisadi əsaslarının öyrənilməsinə, ekoloji amilin diqqət mərkəzində saxlanılmasına, valyuta gəlirlərindən xüsusilə də neft gəlirlərindən səmərəli istifadə olunmasına dair elmi cəhətdən əsaslandırılmış təkliflərin hazırlanması və tövsiyyələrin verilməsi tədqiqat işinin praktiki əhəmiyyətini əks etdirir. Tədqiqat işinin nəticələrindən həmçinin, İqtisadi nəzəriyyə və Makroiqtisadiyyat fənnlərinin tədrisində də istifadə etmək olar.

Tədqiqat nəticəsində əldə olunan yeniliklər və irəli sürülən təkliflər təhriri - məruzə şəklində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi - Tədqiqat İnstitutuna

təqdim edilmiş, tətbiqi haqqında müsbət rəy alınmış və istifadə edilmək üçün qəbul olunmuşdur. (28 yanvar 2016-cı il, protokol № İİETİ-01-7/03)

**Tədqiqatın aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas müddəaları və işdə irəli sürülən əməli təkliflər beynəlxalq və respublika əhəmiyyətli elmi-praktiki konfranslarda məruzə edilmişdir. Dissertasiya mövzusu üzrə 18 məqalə və konfrans materialları çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsində, prof., i.e.d. Yüzbaşıyeva Gülşən Zaid qızı və dos.,i.f.d. Mustafayev Asif Mirlazım oğlunun rəhbərliyi altında yerinə yetirilmişdir.

**İşin həcmi və quruluşu**. Dissertasiya üç fəsil və doqquz paraqrafdan, giriş, nəticə və təkliflər bölməsindən ibarətdir. Birinçi fəsil -51 səhifə, ikinci fəsil-43 sahifə və üçüncü fəsil-34 səhifə həcmindədir. Dissertasiyanının ümumi həcmi 162 səhifədən və yaxud 235 min işarədən ibarətdir. Dissertasiya işində 21 cədvəldən, 3-əlavədən, 43 qrafikdən, 4 şəkildən, həmçinin 173 mənbədən istifadə edilmişdir.

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1-ci müddəa:**

***Azərbaycan iqtisadiyyatında məcmu tələbin və onun tərkib hissələrinin son 18 il üçün dinamikası araşdırılaraq müəyyən edilmişdir ki, məcmu tələblə əhalinin gəlirləri, istehlak xərcləri, investisiyalar, kreditlərin həcmi, dövlət satınalmaları, dövlət xərcləri,ixrac, idxal, qiymətlər asılılıdır. Diğər göstəricilərə nisbətən Azərbaycanda ÜDM ilə "xalis ixrac"ın arasında asılılıq azdır.***

Cədvəl 1-də Azərbaycan real iqtisadiyyatında məcmu tələbin və onun tərkib hissələrinin son 18 il üçün dinamikası verilib. Cədvəldən görünür ki, "xalis ixrac" istisna olmaqla məcmu tələbin bütün tərkib hissələri artan dinamikaya malikdirlər və nəticədə AD-də artan dinamikaya malikdir. Hətta 2008-ci ildə neft ixracının yüksək həcmdə ixracı AD-nin həmin ildə kəskin artmasına səbəb olub.

**Cədvəl 1**

**Azərbaycan real iqtisadiyyatında məcmu tələbin (AD=C+İ+G+X) dinamikası (mln. AZN)**

| İllər | C | İ | G | X | AD |
|---|---|---|---|---|---|
| 2000 | 3272,2 | 1289,8 | 764,0 | 521,521 | 5847,8 |
| 2001 | 3498,4 | 1454,5 | 807,5 | 838,945 | 6599,3 |
| 2002 | 4171,2 | 2718,0 | 931,8 | 491,862 | 8312,86 |
| 2003 | 4793,8 | 4249,3 | 1234,5 | -35,442 | 10242,4 |
| 2004 | 5549,9 | 5820,3 | 1502,1 | 97,608 | 12969,9 |
| 2005 | 6508,7 | 6733,4 | 2140,7 | 125,12 | 15507,9 |
| 2006 | 8208,1 | 7415,6 | 3790,1 | 961,785 | 20375,59 |
| 2007 | 11249,7 | 10353,9 | 6086,2 | 289,548 | 27979,35 |
| 2008 | 15891,9 | 13328,0 | 10774,2 | 32468,8 | 72462,9 |
| 2009 | 17417,6 | 10475,0 | 10503,9 | 6862,64 | 45259,14 |
| 2010 | 19251,5 | 14118,9 | 11765,9 | 11807,68 | 56943,98 |

| Cədvəl 1-in ardı | | | | | |
|---|---|---|---|---|---|
| 2011 | 22184,0 | 17048,8 | 15397,5 | 13283,77 | 67914,07 |
| 2012 | 24564,0 | 20251,1 | 17416,5 | 11118,98 | 73350,58 |
| 2013 | 28021,2 | 21448,2 | 19143,5 | 10 345,1 | 78957,9 |
| 2014 | 30799,6, | 21890,6 | 18709,0, | 9859,902 | 81259,1 |
| 2015 | 34963,4 | 20057,4 | 17784,5 | 3688,02 | 76150,4 |
| 2016 | 39775,0 | 22868,5 | 17751,3 | 8446,45 | 88841,25 |
| 2017 | 44498,4 | 24462,5 | 17594,5 | 11112,39 | 97667,79 |
| 2018 | 42136,7 | 25877,0 | 22731,6 | 13589,12 | 104334,42 |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib, (AD-nin istehlak komponenti (ödəməqabiliyyətli tələb artımı).

**Qrafik 1. AD-nin son 18 ildə inkişaf dinamikası.**

Məcmu tələblə istehlak xərcləri, investisiyalar, dövlət xərcləri,ixrac, idxal, qiymətlər asılılıdır. Digər göstəricilərə nisbətən Azərbaycanda ÜDM ilə "xalis ixrac"ın arasında asılılıq azdır. ÜDM ilə "xalis ixrac" arasındakı korrelyasiya əlaqəsinin o qədər də güclü

olmaması (korrelyasiya əmsalı R=0,8063) hər şeydən əvvəl onunla bağlıdır ki, son 18 ildə ixrac həcminin yüksək olmasına baxmayaraq, idxal həcminin də yüksəkdir və tədiyyə balansının tez-tez ciddi şəkildə "fluktasiyası" baş verir. İxracın əsasən neftdən asılı olması və istehlak mallarına olan tələbatın da idxal hesabına baş verməsi idxal və ixrac arasında müəyyən asılılıq yaradıb.

**2-ci müddəa:**

***Azərbaycan iqtisadiyyatında son 18 ildə qiymətlərin artması heç də tələbin azalması ilə nəticələnməyib. Hətta ixracın çox yüksək olduğu 2008-ci ilin rəqəmlərini nəzərə alsaq, P-AD korrelyasiya əlaqəsinin xeyli güclü olduğunu görə bilərik (korrelyasiya əmsalı R=0,97). Əgər 2008-ci il rəqəmlərini nəzərə almasaq, onda bu əlaqənin daha güclü olduğuna əmin olarıq (R=0,9914).***




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 2. AD-nin həcminin nisbi dəyişmə dinamikası ilə qiymətlərin nisbi dəyişmə dinamikası arasındakı əlaqə.**

Beləliklə, Azərbaycan real iqtisadiyyatında məcmu tələbin (AD) qiymətdən asılılıq dərəcəsini müəyyən edərək Azərbaycanda məcmu tələbin (AD) həcmi üçün model təklif edə bilərik:

$y=0,0294x^4-1,4424x^3+21,455x^2-73,231x+173,74$
$R^2 = 0,9549$

**3-cü müddəa:**

***Məcmu təklifin (AS) dinamikası, onun son 18 ildə 2000-ci ilə nisbətən dəyişməsi və həmin illərdə qiymətlərin nisbi dəyişməsini araşdıraraq belə nəticəyə gəlinmişdir ki, 2000-2014-cü illər ərzində Azərbaycanda məcmu təklifin həcmi ümumilikdə artan tendensiyaya malik olub. 2008-ci ildə bu artım kəskin olsa da sonrakı ildə bu bir qədər artım azalıb, lakin yenidən səlist artım təmin olunub. 2015-ci ildə bir qədər azalma müşahidə olunsa da, sonrakı illərdə yenidən artım müşahidə olunub.***

Artım tempindəki belə dəyişmələr neft ixracının həmindəki dəyişikliklərlə bağlıdır. Belə ki, 2004-cü ildən başlayaraq neft hasilatının kəskin artması və neft qiymətlərinin yüksəlməsi məcmu təklifin həcmini də xeyli artırıb. 2011-ci ildən sonra isə neft hasilatının azalması və sonrakı illərdə neftin qiymətinin aşağı düşməsi AS-nin həcminə mənfi təsir göstərib.




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 3. Məcmu təklifin dinamikası və qiymətdən asılılığı.**

Beləliklə, Azərbaycan real iqtisadiyyatında məcmu təklifin (AS) qiymətdən asılılıq dərəcəsini müəyyən edərək Azərbaycanda məcmu təklifin (AS) həcmi üçün model təklif edə bilərik:

y=4605,4x-9E+06

**4-cü müddəa:**

***Azərbaycanda son 18 ildə qiymətlərin davamlı olaraq artması məcmu təklifin də artmasına səbəb olub. Əlbəttə, məcmu təklifin artması müəyyən həcmdən sonra qiymətlərin sabitləşməsinə səbəb olmalı və qiymət artımını saxlamalı idi. Bu o zaman baş verməli idi ki, AD-AS tarazlığı təmin edilsin. Təəssüf ki, Azərbaycan iqtisadiyyatında belə tarazlığın uzunmüddətli təmin edilməsinə nail olunmayıb***.




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 4.Məcmu təklifin nisbi dəyişməsi dinamikasının qiymət dəyişməsi dinamikasından asılılığı.**

Məcmu tələbin durmadan artması və məcmu təklifin ona "çata" bilməməsi qiymətlərin durmadan artması ilə nəticələnib. Məcmu təklifin nisbi dəyişməsi dinamikası ilə qiymət dəyişməsi dinamikası arasında ciddi korrelyasiya əlaqəsi var

y=0,341x+58,058

**5-ci müddəa:**

***Azərbaycanda son 18 ildə məcmu təklifin artması idxal həcmini qətiyyən azaltmayıb. Əksinə, onlar arasında ciddi korrelyasiya əlaqəsi var.***

**Cədvəl 2.**

**Məcmu təklifin (AS) həcminin idxal həcmi ilə əlaqəsi**

| İllər | AS həcmi (mln,AZN) | İdxal həcmi (mln,AZN) |
|---|---|---|
| 2000 | 4718,1 | 1066,611 |
| 2001 | 5315,6 | 1359,545 |
| 2002 | 6062,5 | 1632,19 |
| 2003 | 7146,5 | 2599,938 |
| 2004 | 8530,2 | 3445,582 |
| 2005 | 12522,5 | 3874,304 |
| 2006 | 18746,2 | 4582,029 |
| 2007 | 28360,5 | 4799,34 |
| 2008 | 40137,2 | 5736,0 |
| 2009 | 35601,5 | 4898,48 |
| 2010 | 42465,0 | 5280,48 |
| 2011 | 52082,0 | 7707,24 |
| 2012 | 54743,7 | 7529,262 |
| .2013 | 58182,0, | 8355,75 |
| 2014 | 59014,1, | 7166,406 |
| 2015 | 54380,0 | 9677,535 |
| 2016 | 60425,2 | 14505,08 |
| 2017 | 70337,8 | 26044,0 |
| 2018 | 80092,0 | 33079,62 |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 5. Məcmu təklifin həcmi ilə idxal həcmi arasında əlaqə.**

Beləliklə, Azərbaycan iqtisadiyyatında məcmu təklifin (AS) həcmi ilə idxal həcmi arasındakı korrelyasi əlaqəsi kifayət qədər güclüdür və korrelyasiya əmsalı R=0,9717-yə bərabərdir. Bu asılılıq dərəcəsini müəyyən edərək Azərbaycanda məcmu təklifin (AS) həcmi üçün model təklif edə bilərik:

$$y=0,1476x+1386,5$$

**6-cı müddəa:**

***Azərbaycanda son 18 ildə məcmu tələbin həcmi ilə məcmu təklifin həcmi yalnız qısa müddət ərzində 2007-ci ildə bərabər olub. Qalan müddətdə isə məcmu tələb məcmu təklifi həmişə üstələyib. Məcmu tələbin məcmu təklifi son 18 ildə davamlı olaraq üstələməsinin nəticəsidir ki, bu müddət ərzində qiymətlərin yalnız yüksəlməsi müşayiət olunub. Son illərdə məcmu tələbin məcmu təklifdən daha da çox olması və onlar arasındakı fərqin getdikcə kəskinləşməsi qiymətlərin sabitləşəcəyindən yox, əksinə artmağa doğru gedəcəyindən xəbər verir.***

Beləliklə, Azərbaycanda son 18 ildə məcmu tələblə məcmu təklif arasındakı əlaqənin dinamikasını izləməklə bazarda müəyyən edilən qiymətlərin ümumi səviyyəsinin hərəkətini izləyə bilərik. Cədvəl 3-də məcmu tələbin həcmi və onun 2000-ci ilə nisbətən dəyişmə dinamikası, məcmu təklif və onun 2000-ci ilə nisbətən

dəyişmə dinamikası, həmçinin 2000-ci ilə nisbətən son 18 ildə qiymət səviyyəsinin dəyişmə dinamikası əks olunub.

**Cədvəl 3.**

**Məcmu tələbin (AD) və məcmu təklifin (AS) dinamikaları arasındakı əlaqə**

| İllər | AD həcmi (mln,AZN) | AD dinamikası % -lə | AS həcmi (mln,AZN) | AS dinamikası %-lə | Qiymət dəyişməsi %-lə |
|---|---|---|---|---|---|
| 2000 | 5847,8 | 100,0 | 4718,1 | 100,0 | 100 |
| 2001 | 6599,3 | 112,9 | 5315,6 | 112,7 | 101,5 |
| 2002 | 8312,86 | 142,2 | 6062,5 | 128,5 | 104,4 |
| 2003 | 10242,4 | 175,1 | 7146,5 | 151,5 | 106,7 |
| 2004 | 12969,9 | 221,8 | 8530,2 | 180,8 | 113,9 |
| 2005 | 15507,9 | 265,2 | 12522,5 | 265,4 | 124,8 |
| 2006 | 20375,59 | 348,4 | 18746,2 | 397,3 | 135,2 |
| 2007 | 27979,35 | 478,5 | 28360,5 | 601,1 | 157,7 |
| 2008 | 72462,9 | 1239,1 | 40137,2 | 850,7 | 190,6 |
| 2009 | 45259,14 | 774,0 | 35601,5 | 754,6 | 193,4 |
| 2010 | 56943,98 | 973,8 | 42465,0 | 900,0 | 204,4 |
| 2011 | 67914,07 | 1161,4 | 52082,0 | 1103,9 | 220,5 |
| 2012 | 73350,58 | 1254,3 | 54743,7 | 1160,3 | 222,9 |
| 2013 | 78957,9 | 1350,2 | 58182,0 | 1233,2 | 228,3 |
| 2014 | 81259,1 | 1389,6 | 58977,8 | 1250,8 | 231,4 |
| 2015 | 76150,4 | 1302,2 | 54380,0 | 1152,6 | 240,7 |
| 2016 | 88841,25 | 1519,2 | 60425,2 | 1280,7 | 270,7 |
| 2017 | 97667,79 | 1670,2 | 70337,8 | 1490,8 | 305,7 |
| 2018 | 104334,42 | 1784,2 | 80092,0 | 1697,5 | 312,6 |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Cədvəldən görünür ki, son 18 ildə Azərbaycanda məcmu tələbin həcmi ilə məcmu təklifin həcmi yalnız qısa müddət ərzində 2007-ci ildə bərabər olub. Qalan müddətdə isə məcmu tələb məcmu təklifi həmişə üstələyib.




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 6. Məcmu tələbin və məcmu təklifin son 18 ildə inkişaf dinamikası.**

Son illərdə məcmu tələbin məcmu təklifdən daha da çox olması və onlar arasındakı fərqin getdikcə kəskinləşməsi qiymətlərin sabitləşəcəyindən yox, əksinə artmağa doğru gedəcəyindən xəbər verir. Xüsusilə narahatçılıq doğuran məsələ ondan ibarətdir ki, məcmu tələbin artması idxalın həcminin çoxalmasına səbəb ola bilər. İdxal mallarının həcminin artması isə manatın məzənnəsinə mənfi təsir göstərə bilər. Bir-biri ilə "zəncirvari" bağlı olan makroiqtisadi problemlər gələcəkdə Azərbaycan iqtisadiyyatına ciddi zərbə vura bilər.

**7-ci müddəa:**

***Azərbaycanda son 18 ildə neft emalının ümumi həcminin məcmu tələbin və məcmu təklifin həcmi ilə əlaqəsi öyrənilmiş və və müəyyən olunmuşdur ki, onlar arasında ciddi korrelyasiya əlaqəsi var.***

Azərbaycanda 2010 ilə qədər neft hasilatı kəskin artıb, lakin sonrakı illərdə neft hasilatının azalmasına baxmayaraq məcmu tələb artmaqda davam edib. Görünür bunun əsas səbəbi gələn gəlirlərin onsuz da kifayət qədər yüksək olması ilə bağlıdır. Çünki neftdən gələn gəlirlərin onsuz da xeyli hissəsi "ehtiyat fonduna", yəni Neft Fonduna toplandığından neft hasilatının və ixracının müəyyən qədər dəyişməsinə məcmu tələbin artması ciddi "reaksiya" vermir. Lakin

neft gəlirlərinin elə müəyyən həddi ola bilər ki, onun o həddən aşağı azalmasına məcmu tələb "reaksiya" verəcək. Burada əlbəttə, təkcə neft hasilatının və ixracının həcmi rol oynamır, həm də neftin dünya bazarındakı qiyməti mühüm əhəmiyyət kəsb edir. Çünki məcmu tələbə təsir göstərən amil neftdən gələn məcmu gəlirdir. AD ilə neft hasilatı arasındakı belə korrelyasiya əlaqəsi çox güclüdür və korrelyasiya əmsalı R=0,9437-yə bərabərdir.




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 7. AD ilə neft hasilatının həcmi arasında olan əlaqə.**

Məcmu təkliflə neft hasılatı arasındakı əlaqə isə fərqli nəticələri çıxarmağa imkan verir. Belə ki, məcmu tələbin artması hasilatın artmasını stimullaşdırdığından hasilatın artması ilə məcmu təklifin artması arasında xətti korrelyasiya olmalıdır.




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 8. AS ilə neft hasilatı arasındakı əlaqə .**

Doğrudan da Azərbaycanda son 18 ildə hasilatın artması ilə məcmu təklifin həcmi də artıb. Bu iki kəmiyyət arasında olan xətti korrelyasiya kifayət qədər güclüdür.

**8-cu müddəa:**

***Azərbaycanda davamlı inkişaf şəraitində makroiqtisadi tarazlığı təmin etmək üçün verilən təklif yaxın illərdə məcmu təklifin həcmi ilə məcmu tələbin həcminin yaxınlaşdırılmasından ibarət ola bilər. Deməli, elə iqtisadi islahatlar həyata keçirilməlidir ki, növbəti 5-10 ildə bu iki göstəricini ifadə edən əyrilər bir-birinə tədricən və mümkün qədər daha çox yaxınlaşsın.***




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib.

**Qrafik 9. Məcmu tələblə məcmu təklifin yaxın gələcəkdə mümkün dinamikasının proqnozu.**

Bu iki göstəricinin bir-birinə yaxınlaşması nəzəri cəhətdən aşağıdakı hallarda mümkündür:

1.Yalnız məcmu tələbin azaldılması yolu ilə;

2.Yalnız məcmu təklifin artırılması yolu ilə;

3.Həm məcmu tələbin azaldılması, həm də məcmu təklifin artırılması yolu ilə.

Beləliklə, məcmu tələblə məcmu təklif arasındakı tarazlığın təmin edilməsi üçün məcmu tələbin azaldılması variantından deyil, əksinə məcmu təklifin artırılması variantından istifadə etmək lazımdır. Bu variant isə daxili bazar üçün zəruri olam mal və xidmətlərin idxal hesabına deyil, daxili istehsal hesabına təmin edilməsini zəruri edir.

Məcmu tələblə məcmu təklifin yaxın gələcəkdə mümkün dinamikasını aşağıdakı kimi təsvir etmək olar. Bu o modelə uyğun gəlir ki, 1) əhalinin istehlak xərcləri inzibati yollarla azaldılmır 2) investisiyaların həcmi azaldılmır 3) dövlət xərcləri 20-25% azaldılır 4) xalis ixrac idxalın azaldılması hesabına artırılır. Bu modeldə məcmu tələb demək olar ki, indiki vəziyyətdə sabir olaraq saxlanılır. Lakin məcmu təklif daxili istehsalın artması hesabına 20-25% artırılır. Bu isə o zaman mümkün ola bilər ki, 1) nəzərdə tutulan investisiyaların əsas hissəsi idxalı əvəz edən sahələrin inkişafına yönəldilsin; 2) ixracın stimullaşdırılması və idxalın məhdudlaşdırılması üçün proteksionist tədbirlər görülsün.

Araşdırmalar onu göstərir ki, növbəti illərdə Azərbaycanda mövcud iqtisadi konyuktura üç istiqamətdə dəyişə bilər. *Birinci iqstiqamət* son illərdəki kimi məcmu tələbin məcmu təklifdən üstün mövqeyinin (təqribən 25-30%) qorunub saxlanması və hər iki göstəricinin yalnız artım trendinə malik olmasıdır.Bu inandırıcı deyil, çünki son illərdə neft qiymətlərinin dünya bazarında sürətlə azalması ölkə iqtisadiyyatına daxil olan neft gəlirlərinin də sürətlə azalacağından xəbər verir. Beləliklə, Azərbaycanda məcmu tələblə məcmu təklif arasındakı nisbət son illərdə olduğu trendlə inkişaf edə bilməz.

*İkinci istiqamət* isə bu iki göstəricinin hər ikisinin azalması və getdikcə, bir-birinə yaxınlaşması trendidir. Əlbəttə, Azərbaycan iqtisadiyyatın növbəti illərdə belə istiqamətdə inkişafı arzu olunan deyil, amma bu istiqamət neft gəlirlərinin azalması şəraitində mümkün olan variantlardan biridir və tədqiq edilməsi ona görə vacibdir ki, gələcəkdə mümkün iqtisadi tənəzzülün miqyası təsəvvür edilsin.

*Üçüncü istiqamət* isə Azərbaycan iqtisadiyyatı üçün reallaşması vacib olan trendir. Bu istiqamət məcmu tələbin və məcmu

təklifin artım dinamikasının saxlanması şərti ilə bir-birinə daha çox yaxınlaşdırılmasıdır. Məcmu təklifi daxili bazarın qorunması və daxili istehsal hesabına elə səviyyədə inkişaf etdirmək lazımdır ki, məcmu tələblə onun arasındakı fərq minimuma qədər azaldılsın. Bu minimumun 3-5% olması daha məqsədəuyğundur. Bu fərq ölkədə inflyasiya faizinə yaxın olacaq və məcmu təklifin üstün mövqe tutmasına müvafiq olaraq daxili istehsalın da artmasına təkan verəcək. Bu trendin saxlanması bazardakı qiymətlərin artım sürətini azaltmaqla yanaşı daxili bazarın da qorunmasına və əhalinin sosial-iqtisadi vəziyyətinin, ümumilikdə həyat şəraitinin daim yüksəlməsinə təkan verə bilər.

Beləliklə, Azərbaycan iqtisadiyyatının hər üç variantda inkişafı ölkədə sosial-iqtisadi vəziyyətə təsir göstərəcək. Ona görə də bu variantların hər hansı birinin reallaşması şəraitində sosial-iqtisadi təsirlərin mümkün inkişaf trendinin öyrənilməsi və proqnozlaşdırılması mühüm əhəmiyyət daşıyır. Odur ki, bu halların hər birini ayrı-ayrılıqda modelləşdirilməsinə çalışılmışdır.

## Nəticə və təkliflər

Nəzəri dəyərləndirmələr aparıldıqdan sonra belə nəticəyə gəlmək olar ki, makroiqtisadi tarazlığın təmin edilməsi iki istiqamətdə tətbiq edilməlidir. Birinci istiqamət tarazlığın təmin edilməsinə maneə yaradan amillərin öyrənilməsi, ikincisi tarazlığın təmin edilməsini şərtləndirən amillərin öyrənilməsi.

Makroiqtisadi tarazlığın təmin edilməsi davamlı inkişafın təmin olunmasına istiqamətlənən bir iqtisadi proses olub, iqtisadiyyatda digər bir sıra münasibətlərlə səbəb-nəticə əlaqələrini şərtləndirməkdədir. Nəzərə almaq lazımdır ki, davamlı inkişaf təmin olunma baxımından müəyyən konsepsiyaya əsaslanır və tədqiqat zamanı müəyyən olunmuşdur kı, Azərbaycan üçün onun başlıca prinsipləri bunlardır:

- Cəmiyyət sosial-iqtisadi sferada inkişafın gedişatına uzunmüddətli dövr ücün davamlı xarakter vermək gücündə olmalıdır.

- Təbii ehtiyatlardan istifadə sferasındakı işləmələr məhdudluq baxımından nisbi xarakter daşıyır, cünki cəmiyyət və onun müasir inkişaf səviyyəsi alternativ ehtiyat mənbələri yaratmalıdır.
- Davamlı inkişafın mümkünlük şərtlərindən biri kimi cəmiyyət üzvlərinin adi tələbatlarının ödənilməsinin problem mövzusu olmamalıdır. Nəzərə almaq lazımdır ki, davamlı inkişafda diqqət mərkəzində saxlanılan ekoloji amil əsas etibarilə adi tələbatların ödənilməsi prosesində aktuallıq kəsb etməlidir.
- Kapital sahibi olanların həyat tərzlərini ölkənin və regionun ekoloji gücü ilə eyniləşdirmək, nadir resurslardan istifadə üzrə səmərəliliklə uzlaşmalıdır.
- Əhalinin artımı və sakinliyi ərazinin qlobal ekosistemi ilə uzlaşdırmalı və gücün istehsal prosesində müəyyən olunmasına istiqamətlənməlidir.
- Tədqiqat zamanı müəyyən olunmuşdur ki, davamlı inkişaf anlayışı Azərbaycan iqtisadiyyatı üçün daha çox yoxsulluğun aradan qaldırılması mənasında yanaşılmış və bu məqsədə çatmaq üçün aşağıdakı tədbirlər prioritet hesab olunmuşdur:
- Makroiqtisadi stabilliyin qorunması və qeyri-neft sektorunun tarazlı inkişaf etdirilməsi
- Gəlir əldə etmək imkanlarının genişliyi və yoxsulluğun azaldılması
- Sosial müdafiə sistemində səmərəliliyin əldə olunması və xüsusən də sosial risklərin azaldılması
- Müharibə vəziyyəti ilə əlaqədar olaraq məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədi ilə iqtisadi tədbirlərin gücləndirilməsi
- Xüsusən təhsil və səhiyyə sistemində islahatların həyata kecirilməsi və xidmətlərin keyfiyyətinin artırılması
- Sosial sferada infrastrukturun genişləndirilməsi və xidmətlər sisteminin təkmil hala gətirilməsi
- Ekoloji vəziyyət ilə əlaqədar ətraf mühitin mühafizəsi üzrə iqtisadi imkanlardan istifadə

- İnstitusional islahatların davam etdirilməsi fonunda səmərəli idarəetmə sisteminin yaradılması

Göründüyü kimi davamlı inkişafın əldə olunmasının başlıca şərti kimi makroiqtisadi stabilliyin təmin olunması əsas götürülmüşdür. Lakin tədqiqat işində biz bu məsələyə ikili xarakter yanaşması göstərmiş və əsaslandırmışıq ki, davamlı inkişaf ilə makroiqtisadi tarazlıq bir-birini qarşılıqlı olaraq tamamlayan iki prosesdir. Lakin burada davamlı inkişafla bağlı zaman amilini mütləq nəzərə almaq lazımdır.

"Davamlı inkişaf" deyəndə elə iqtisadi inkişafı nəzərdə tutmalıyıq ki, iqtisadi artımla sosial-iqtisadi inkişaf və ekoloji tarazlıq harmoniya təşkil etsin. Azərbaycanda "davamlı inkişafın" və makroiqtisadi tarazlığın bir–biri ilə əlaqəsini məcmu tələb (AD) və məcmu təklif (AS) ilə iqtisadi artımın, sosial-iqtisadi inkişafın və ekoloji tarazlığın arasındakı əlaqə kimi tədqiq etmişik. Ancaq Azərbaycanda makroiqtisadi tarazlığın davamlı inkişafa təsiri tədqiq ediləndə nəzər almaq lazımdır ki, Azərbaycanda digər region ölkələrindən fərli olaraq neft gəlirləri ÜDM-da və xarici ticarətdə mühüm çəkiyə malikdir. Böyük həcmli kapital tutumlu və digər sahələrlə müqayisədə daha az əmək tutumlu hasilat sənayesinin ölkə iqtisadiyyatına gətirdiyi əlavə dəyər Azərbaycanda həm məcmu tələbin, həm də məcmu təklifin xarakterinə təsir göstərir.

Azərbaycan real iqtisadiyyatında məcmu tələbin və onun tərkib hissələrinin son 18 il üçün dinamikası araşdırılaraq belə nəticəyə gəlinib ki, "xalis ixrac" istisna olmaqla məcmu tələbin bütün tərkib hissələri artan dinamikaya malikdirlər və nəticədə AD də artan dinamikaya malikdir. Məcmu tələbin komponentləri içərisində xüsusi çəkisinə görə birinci yerdə qərarlaşan istehlak xərcləri (C) adambaşına dünya ölkələri üzrə rəqəmdən 3 dəfə az olsa da, inkişaf dinamikası dünya üzrə olan dinamikadan ciddi fərqlənmir, yəni davamlı olaraq artır. ÜDM ilə əhalinin istehlak xərcləri arasındakı korrelyasiya asılılığı xeyli güclüdür və korrelyasiya əmsalı R=0,7539-dir.

Məcmu tələbin ikinci toplananı olan investisiyaların da həcmi son 18 ildə xeyli artıb. İnvestisiyaların həcmi ilə ÜDM həcmi

arasındakı korrelyasiya əlaqəsi güclüdür və korrelyasiya əmsalı R=0,9856-ə bərabərdir.

Azərbaycanda hökumətin istehlak xərcləri son 18 ildə artma dinamikasına malik olsa da, dünya üzrə orta rəqəmdən geri qalır. ÜDM ilə dövlət xərcləri arasındakı korrelyasiya əlaqəsi xeyli güclüdür və korrelyasiya əmsalı R=0,9928-ə bərabərdir.

Azərbaycanda adambaşına ixrac həcmi də 2007-ci ilədək dünya üzrə orta qiymətdən az olduğu halda (bəzi illərdə hətta 4 dəfə az) sonrakı illərdə xeyli yüksələrək dünya üzrə orta rəqəmə yaxınlaşıb. Azərbaycanıın son 25 ildə idxal fəaliyyətinin ümumi tendensiyası ixrac fəaliyyətindən bir qədər fərqlənir. Belə ki, müstəqilliyin ilk illərində ixrac həcmi azaldığı halda idxal həcmi bir neçə il azalmayıb. Azərbaycanın idxal və ixrac fəaliyyətinin son 18 ildə dinamikasını və "xalis ixracın" həcmini təhlil edəndə belə nəticəyə gəlmək olur ki, "xalis ixrac" dinamikası əsasən neft gəlirləri ilə bağlı olduğundan neft gəlirlərinin təsiri onun formalaşmasında güclüdür. Elə bunun nəticəsidir ki, həm ixrac olunan neftin həcmi azaldıqca, həm də dünya bazarında neftin qiyməti endikcə "xalis ixracın" həcmi də azalıb. Azərbaycanda ÜDM ilə "xalis ixrac"ın ümumi dinamikasına güclü təsir göstərmir. ÜDM ilə "xalis ixrac" arasındakı korrelyasiya əlaqəsinin o qədər də güclü olmaması (korrelyasiya əmsalı R=0,8063) hər şeydən əvvəl onunla bağlıdır ki, son 18 ildə ixrac həcminin yüksək olmasına baxmayaraq, idxal həcminin də yüksəkdir və tədiyyə balansının tez-tez ciddi şəkildə "fluktasiyası" baş verir. İxracın əsasən neftdən asılı olması və istehlak mallarına olan tələbatın da idxal hesabına baş verməsi idxal və ixrac arasında müəyyən asılılıq yaradıb.

Məcmu tələb və məcmu təklif bazarda qiymətin formalaşmasında əsas rol oynayır. Qərarlaşmış qiymət hər hansı zaman kəsiyində məcmu tələblə məcmu təklifin tarazlığını ifadə edirsə, qiymətin dəyişməsi isə "iqtisadi indikator" kimi AD ilə AS arasındakı qeyri-tarazlıqdan xəbər verir. Azərbaycanda son 18 ildə qiymətlərin yalnız artması müşayiət olunub. AD-nin həcmində də davamlı artım var. Qiymətlərin artması heç də tələbin azalması ilə nəticələnməyib. Hətta ixracın çox yüksək olduğu 2008-ci ilin rəqəmlərini nəzərə alsaq, P-AD korrelyasiya əlaqəsinin xeyli güclü olduğunu görə bilərik (korrelyasiya əmsalı R=0,97). Əgər 2008-ci il

rəqəmlərini nəzərə almasaq, onda bu əlaqənin daha güclü olduğuna əmin olarıq (R=0,9914).

Azərbaycanda məcmu təklifin həcmi ümumilikdə artan tendensiyaya malik olub. 2008-ci ildə bu artım kəskin olsa da sonrakı illərdə bir qədər artım azalıb, lakin yenidən səlist artım təmin olunub. Azərbaycanda son 18 ildə qiymətlərin davamlı olaraq artması məcmu təklifin də artmasına səbəb olub. Əlbəttə, məcmu təklifin artması müəyyən həcmdən sonra qiymətlərin sabitləşməsinə səbəb olmalı və qiymət artımını saxlamalı idi. Bu o zaman baş verməli idi ki, AD-AS tarazlığı təmin edilsin. Təəssüf ki, Azərbaycan iqtisadiyyatında belə tarazlığın uzunmüddətli təmin edilməsinə nail olunmayıb. Məcmu tələbin durmadan artması və məcmu təklifin ona "çata" bilməməsi qiymətlərin durmadan artması ilə nəticələnib. Məcmu təklifin nisbi dəyişməsi dinamikası ilə qiymət dəyişməsi dinamikası arasında ciddi korrelyasiya əlaqəsi var və korrelyasiya əmsalı R=0,9799-a bərabərdir.

Məcmu təklifin artması idxal həcmini qətiyyən azaltmayıb. Məcmu təklifin həcmi ilə idxal həcmi arasındakı korrelyasi əlaqəsi kifayət qədər güclüdür və korrelyasiya əmsalı R=0,9717-yə bərabərdir.

Son 18 ildə Azərbaycanda məcmu tələbin həcmi ilə məcmu təklifin həcmi yalnız qısa müddət ərzində 2007-ci ildə bərabər olub. Qalan müddətdə isə məcmu tələb məcmu təklifi həmişə üstələyib. Məcmu tələbin məcmu təklifi davamlı olaraq üstələməsinin nəticəsidir ki, bu müddət ərzində qiymətlərin yalnız yüksəlməsi müşayiət olunub. Son illərdə məcmu tələbin məcmu təklifdən daha da çox olması və onlar arasındakı fərqin getdikcə kəskinləşməsi qiymətlərin sabitləşəcəyindən yox, əksinə artmağa doğru gedəcəyindən xəbər verir.

AD, AS və P ilə yoxsulluq həddi arasında tərs mütənasib olan, azalan üstlü funksiya xarakterli ciddi korrelyasi əlaqəsi var. AD, AS və P ilə əhalinin gəlir səviyyəsi, məşğul əhalinin sayı, orta aylıq əmək haqqı arasındakı korrelyasiya əlaqəsi xeyli güclüdür.

Azərbaycanda neft hasilatının və emalının həçminin, həmçinin əhalinin gəlirlərinin və istehlak xərclərinin artması ilə şəxsi avtomaşınların sayının kəskin çoxalması ölkədə, xüsusilə, Bakıda

ekoloji riskləri yüksəldib. ETSN məlumatına görə 2016-cı ildən sonra Bakının atmosfer havasında çirkləndirici maddələrin orta sutkalıq qatılığının azalması müşahidə olunub. Makroiqtisadi tarazlıq elə təmin edilməlidir ki, ekoloji risk yalnız azalma dinamikasına malik olsun. AD ilə neft hasilatı arasındakı belə korrelyasiya əlaqəsi çox güclüdür və korrelyasiya əmsalı R=0,9714-yə bərabərdir. Məcmu təkliflə neft hasılatı arasındakı əlaqə isə fərqli nəticələri çıxarmağa imkan verir. Belə ki, məcmu tələbin artması hasilatın artmasını stimullaşdırdığından hasilatın artması ilə məcmu təklifin artması arasında xətti korrelyasiya olmalıdır. Bu iki kəmiyyət arasında olan xətti korrelyasiya kifayət qədər güclüdür və korrelyasiya əmsalı R= 0,9536-ya bərabərdir.

Məcmu tələb və məcmu təkliflə ölkədə avtomobillərin sayı arasındakı korrelyasiya əlaqəsi olduqca güclüdür.

Məcmu tələblə məcmu təklifin yaxın gələcəkdə mümkün dinamikasını aşağıdakı kimi təsvir etmək olar. Bu o modelə uyğun gəlir ki, 1) əhalinin istehlak xərcləri inzibati yollarla azaldılmır 2) investisiyaların həcmi azaldılmır 3)dövlət xərcləri 20-25% azaldılır 4) xalis ixrac idxalın azaldılması hesabına artırılır. Bu modeldə məcmu tələb demək olar ki, indiki vəziyyətdə sabir olaraq saxlanılır. Lakin məcmu təklif daxili istehsalın artması hesabına 20-25% artırılır. Bu isə o zaman mümkün ola bilər ki, 1) nəzərdə tutulan investisiyaların əsas hissəsi idxalı əvəz edən sahələrin inkişafına yönəldilsin; 2) ixracın stimullaşdırılması və idxalın məhdudlaşdırılması üçün proteksionist tədbirlər görülsün.

Neft Fondunun xərcləri ilə əhalinin istehlak xərcləri, Azərbaycan iqtisadiyyatına yönələn investisiyaların həcmi, dövlət xərcləri, idxal həcmi arasında da ciddi korrelyasiya əlaqəsi var. ARDNF-nun xərclərinin həcmi ilə yoxsulluq həddindən aşağı yaşayan əhalinin xüsusi çəkisi arasındakı tərs mütənasib korrelyasiya əlaqəsi var. ARDNF-nun gəlirləri və xərcləri ilə əhalinin gəlir səviyyəsinin, məşğulluq və orta aylıq əmək haqqının səviyyəsi, avtomobillərin sayı arasında da korrelyasiya əlaqəsi var. Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə yeraltı və yerüstü metro nəqliyyatının genişlənməsinə ciddi ehtiyac var. Belə nəqliyyat növləri Bakı ətrafı ərazilərdən Bakıya sərnişin daşımanı genişləndirərək Bakıya daxil

olan avtobusların və minik avtomobillərinin sayını kəskin şəkildə aşağı sala bilər.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Aslanova İ.E.,Vəliyev D.Ə. Qloballaşma şəraitində davamlı inkişafın müasir paradiqmaları // Bakı, AU,” Qloballaşma səraitində davamlı inkişafın aktual problemləri” mövzusunda beynəlxalq elmi konfrans, 4-5may 2011-ci il, səh.26-29.
2. Aslanova İ.E. Müasir mərhələdə inteqrasiya və makroiqtisadi tarazlığın təmin olunmasında dövlətin rolu // - AU, **“**Müasir dünyada inteqrasiya və müqavimət prosesləri” mövzusunda beynəlxalq elmi konfrans, 9 iyun 2012-ci il, səh.143-146.
3. Aslanova İ.E. Makroiqtisadı səviyyədə dövlətin innovasiya siyasəti // SDU və AMEA-nın İqtisadiyyat institutu, ”İnnovasiya yönümlü inkişafın sosial-iqtisadi problemləri” mövzusunda beynəlxalq elmi konfrans, 28 sentyabr 2012-ci il, səh.160-162.
4. Aslanova İ.E. Davamlı inkişafın təmin olunmasına nəzəri yanaşma // AU, “ Ipək yolu” jurnalı №2, 2015-ci il, səh.11-18.
5. Aslanova İ.E. Davamlı inkişafın təmin olunması problemi // AƏSMA,EİM,AHİK “Regionların innovativ sosial-iqtisadi inkişafı: reallıqlar və perspektivlər” respublika elmi-praktiki konfransı,7 may 2015-ci il, səh. 64-65.
6. Aslanova İ.E. Makroiqtisadi tarazlığın təmin edilməsinin ekoloji təsirlərinin qiymətləndirilməsi // “İnvestiцii:практика та досвід” jurnalı, İqtisadiyyat xəbərləri №13, 2016-cı il, səh. 65-70.
7. Aslanova İ.E. Azərbaycan iqtisadiyyatında real makroiqtisadi tarazlıq modeli və onun iqtisadi artıma təsirinin qiymətləndirilməsi // AU,“ Ipək yolu” jurnalı №1, 2016-cı il, səh.79-85.
8. Aslanova İ.E. Makroiqtisadi tarazlığın təmin edilməsində paradiqmalar və qiymətləndirmələr // AMEA “ Elmi əsərlər “ №2, 2016-cı il, səh.142-147.
9. Aslanova İ.E. Makroiqtisadi tarazlığın təmin edilməsinin davamlı inkişafa təsirinin müasir vəziyyəti // SDU və ADİU

“İqtisadiyyatın davamlı inkişafı problemlər, perspektivlər” beynəlxalq elmi konfrans, 27-28 aprel 2016-cı il, səh. 260-262.

10. Aslanova İ.E. Azərbaycanda makroiqtisadi tarazlıgın təmin olunmasının muasir vəziyyəti // AU,“ İpək yolu” jurnalı №3, 2016-cı il, səh.29-36.

11. Aslanova İ.E. Makroiqtisadi tarazlığın təmin edilməsinin sosial-iqtisadi təsirlərinin qiymətləndirilməsi // AU,“ İpək yolu” jurnalı №3, 2017-cı il, səh.5-10.

12. Aslanova İ.E. Ekoloji tarazlığın pozulmasına makroiqtisadi amillərin təsiri // AU,“ Ipək yolu” jurnalı №4, 2017-cı il, səh21-25.

13. Aslanova İ.E. Davamlı iqtisadi inkişafın təmin edilməsində ekoloji amillərin rolu // LDU, “Müasir dünyada inteqrasiya və elmin aktual problemləri”, respublika elmi konfransı, 22-23 dekabr 2017, səh.182-183.

14. Aslanova İ.E. Azərbaycan Respublikasında davamlı inkişaf şəraitində sosial təminat və sosial müdafiə // AU, “Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri” beynəlxalq elmi konfrans, 14-15 may 2018, səh.35-37.

15. Aslanova İ.E. Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsinin davamlı inkişafa təsiri // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş “Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans, Kooperasiya Universiteti, Bakı, 1-2 iyun 2018, səh.189-192.

16. Aslanova İ.E. Davamlı inkişafın təmin olunmasında modernləşmə siyasəti // AU, “Modernləşmə şəraitində milli iqtisadiyyatın inkişafının aktual problemləri və perspektiv istiqamətləri” Respublika elmi konfransı,10 oktyabr 2018-ci il, səh.14-17.

17. Aslanova İ.E. Problems of social development management in sustainable development in the republic of Azerbaijan // V TURKCESS, V Beynəlxalq Təhsil və Sosial elmlər konfransı, İstanbul, 27-29 iyun 2019, səh. 2024-2029.

18. Aslanova İ.E. Davamlı iqtisadi inkişafın təmin edilməsində makroiqtisadi tarazlıq modelinin rolu // AU,“ Ipək yolu” jurnalı №3, 2019-cu il, səh.35-42.

Dissertasiyanın müdafiəsi 03 noyabr 2021-ci il tarixində saat $11.^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu.

e-mail: economicscomaz@gmail.com

Dissertasiya ilə AMEA İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.09. 2021
Kağızın formatı:  A5
Həcm: 37406
Tiraj: 100